# 8 noyabr - Zəfər günündə şəhadətə ucaldı...

**30 il işğal altında qalan əzəli və əbədi yurd yerimiz Qarabağın azadlığı naminə başlanan 44 günlük haqq savaşımızda minlərlə qeyrətli, mətin oğullar odlardan, alovlardan keçərək qanı bahasına yağıya qalib gəlib xalqımıza zəfər sevinci yaşatdılar. Beləcə öz halal torpağının xilaskar əreni kimi tarixin yaddaşında iz qoyan qəhrəmanlardan biri də 13 sentyabr 2001-ci il tarixində Cəlilabad şəhərində dünyaya göz açan Rəşid Ələkbər oğlu Zeyniyevdir.**



Vətən, torpaq sevgisi onu şəhidlik zirvəsinə ucaltdı. Canı bahasına ulu torpağın bağrına Azərbaycanın üçrəngli qələbə Bayrağını sancan Vətən sevdalısı indi cismən aramızda olmasa da, mərdlik simvoluna dönərək milyonların ürəyində özünə əbədi yurd-yuva qurub. Qürur və heyrət doğuran qısa həyat yolu isə zaman-zaman gələn nəsillərə örnək olacaq. Eyni zaman ona tapındıqca müqəddəs bir sevginin işığında yaşadığın dünyaya mehr, məhəbbət gələr...

Halal bir ocağın yetirməsi olan Rəşid şəhər 5 saylı tam orta məktəbində təhsil başa vurub, insanlara fayda vermək məqsədilə Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzində oxuyub. Hələ kiçik yaşlardan idmanın güləş növünə maraq göstərib və müxtəlif yarışlarda qazandığı uğurlarla yaxış tanınıb. Müstəqil həyata qədəm qoyanda tanışları, yaxınları onun yaxşı əməlləri ilə qürur duyublar. Yaşının az olmasına baxmayaraq xeyirxahlığı, mənəvi yetkinliyi yaşadığı cəmiyyətdə ona hörmət qazandırıb. İlk gündən gələcəyini xoş arzular üzrə quran, özünü doğma yurdundan ayrı təsəvvür etməyən Rəşidi erməni daşnaklarının Vətən torpaqlarının təcavüzü həddsiz dərəcədə düşündürüb.

Bəli, Rəşidin yaşı çatanda ordu sıralarına ürəklə yollanıb. Cəbhə bölgəsinə düşdüyünə görə çox sevinib və qürur duyub. Eşqində, gözündə bir sehrli nur doğma Azərbaycana sədaqəti ona yaxşı əsgər olmaqda, hərbi təlimlərdə iştirak etdiyi bütün sınaqlarda uğur qazanmaqda böyük stimul verib. Həftələr ötdükcə Rəşid nümunəvi xidməti ilə Vətən, xalq üçün əsl yararlı övlad olduğunu tam sübut edib.

Nəhayət ki, Rəşidin illərlə arzuladığı gün gəlib. İkinci Qarabağ müharibəsi başlanıb. Vətən torpaqların azadlığı naminə odun-alovun içinə atılan əsgər Rəşid ilk andan yağıya qarşı ölüm-dirim vuruşlarda böyük hünər göstərib. Başına yağan güllələrdən ehtiyat etmədən erməni dığalarını qıra-qıra ürəkdən inandığı qələbəyə doğru irəliləyib. Müharibə meydanında olduğu günlərdə yeni-yeni igidlikləri dillərdə dastana dönüb. Hər zəfərdən sonra isə qəlbində düşmənə olan nifrəti daha da alovlanıb, son qarış Vətən torpağının azad olunacağı günədək vuruşacağına and içib.

İgid əsgər ən çox da Füzuli rayonu və Şuşa şəhəri uğrunda gedən savaşlarda fəal olub, dəfələrlə Vətən sevgisi onu ölümün pəncəsindən qurtarıb. Təəssüf ki, qələbəmizin lap bir addımında - 8 noyabr tarixində Şuşa istiqamətində döyüş zamanı yaxınlığında partlayan mərmi bu qəhrəman övladımızın həyatına son qoyub. O, doğulub boya-başa çatdığı Cəlilabad şəhərində dəfn olunub. Dövlət tərəfindən "Vətən uğrunda"; Füzulinin, Xocavəndin, Şuşanın azadlığına görə, "Cəsur döyüşçü" medalı, 3-cü dərəcəli " Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Vətən, torpaq naminə canından keçərək şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəf və qürurdur. Cəlilabadın igid oğlu Rəşid də belə bir ömür yaşadı. Onun əziz xatirəsi daim öz xalqının qəlbində yaşayacaq.

*Zəfər ORUCOĞLU*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

Bakı Xəbər.- 2025.- 2 sentyabr (№ 155).- S.15.